**Rumıniyanın Xarici İşlər Nazirliyinin 2021/2022-ci tədris ili üçün təqaüd proqramı**

Rumıniya Xarici İşlər Nazirliyi 2021/2022-ci tədris ili üzrə ali təhsilin müxtəlif səviyyələri üzrə təqaüd proqramı elan edir.

**Təhsil səviyyəsi:** bakalavriat, magistratura, doktorantura

**Tədris dili:** rumın dili

**İxtisaslar:** memarlıq, incəsənət, Rumıniya mədəniyyəti və sivilizasiyası, jurnalistika, siyasi və idarəetmə elmləri, təhsil elmləri, neft-qaz, kənd təsərrüfatı və texnologiya elmləri, baytarlıq.
*Qeyd: tibb və əczaçılıq ixtisasları nəzərdə tutulmamışdır.*

**Maliyyələşmə:** təhsil haqqı, yataqxana xərcləri, aylıq təqaüd (bakalavriat - 65 avro, magistratura təhsil səviyyəsi üçün 75 avro, doktorantura 85 avro).

**Ətraflı məlumat və tələblər:** **https://www.mae.ro/en/node/10251**

**Son tarix:** **30.04.2021**

Müsabiqədə iştirak etmək istəyən Azərbaycan Respublikası vətəndaşları yuxarıdakı keçiddə göstərilən müvafiq ərizə formaları ilə birgə tələb olunan sənədləri 30.04.2021-ci il tarixinədək Rumıniyanın Azərbaycandakı Səfirliyinə təqdim etməlidir.

**Namizədlərin seçimi Rumıniyanın aidiyyəti nazirlikləri tərəfindən həyata keçirilir.**

Təqaüd proqramı ilə bağlı hər hansı sual yaranacağı təqdirdə Rumıniyanın Azərbaycandakı Səfirliyi ilə əlaqə saxlamaq tövsiyə edilir.